Salam əziz qonşu. Mənim adım Lidiadır. Məktubumu sualla başlayım: sülh deməklə nə başa düşürsən? "Sülh nədir"- sualına çoxlu cavab vermək olar. Amma sənə öz mövqeyimi danışmaq istəyirəm. İndi bizi minlərlə kilometr məsafəsi, fərqli dini aqidələr, bir-birinə əks olan siyasi baxışlar ayırır. Amma bir şey aydındır - bütün dünyada sülhün dili eynidir. Bunca fərqlərə baxmayaraq bizim  çoxlu oxşarlıqıarımız da vardır. Biz hamımız İNSANıq. Biz hamımız həyacansız, ədavətsiz öz gündəlik həyatını yaşamaq arzusunda olan insanlarıq. Adam olmaq asandı, lakin beynəlxalq konfliktlərin həllində insani iradə göstərmək çətindi.
Erməni reallığı barədə bir maraqlı detal danışmaq istəyirəm. Bütün erməni uşaqlar öz təzə il arzularında bütün dünyaya mütləq sülh arzulayırlar. Mən özüm də bu cür mktublar yazmışam. Maraqlıdır ki, uşaqlaq əmin-amanlığı çin olmayacaq arzu kimi görürlər, amma ən böyük sülhməramlar məhz bizim körpələrimizdir.

İnqilab öz daxilimizdə çox şey dəyişdirib: düşüncə tərzimizi, dünyagörüşümüzü dəyişdirib. İki aydan artıq davam edən indakar mübarizədən sonra gənc nəsil ölkənin gələcəyinin kimlərin əllərində olmasını sübut etməyə müvəffəq olub. İndi həmin gənclər nifrət hasarını keçib sülh dalğasını yaymağa hazırdır.

Bilirəm bir məktubla Erməni-Azərbaycan münaqişəsi çətin ki tənzimlənə, lakin gələcəkdə ixtilafın həll olunması üçün biz müsbət mühit yarada bilərik. Biz nifrət və zorakılıq aşılan maşına son qoyacaq insanlar ola bilərik. Siyasi mənafelər insanlar arasında ünsiyyətdən üstün tutulmamalıdır.

Əgər zaman maşınıyla bir neçə on illik keçmişə qayıda bilsək görərəik ki millətlərimiz qonşuluqda necə mehiban yaşayırdılar. Çoxları öz azərbaycanlı dostlarını xatırlayır. Hər şey müharibədən sonra dəyişib. Demək olar ki, yalnız müharibə insanlar üçün hər şeyi qaraya və ağa bölür. Biz bu stereotipləri dəyişdirəcək insanlar ola bilərik. Biz vəziyyəti bizim üçün düzgün olan uç bucaq kimi görməməliyik, o üç bucaqdan çıxıb daha iraq baxmağı bacarmalıylq. Sülh yolumuzu biz qura bilərik, çünki dünya bizimlə dəyişir.

Hörmətlə Lidia